HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 mart 2016-cı il

№005 (19)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## ANKARADA DAHA BİR TERROR FACİƏSİ YAŞANDI




Martın 13-də Ankarada Qızılay meydanıyaxınlığındakı avtobus dayanacağında adamların sıx toplaşdığı anda baş verən partlayış son bir neçə ayda baş verən sayca beşinci terror hadisəsidir. Son məlumatlara görə, terror aktı nəticəsində 37 nəfər ölüb, yaralananlar isə 125 nəfərdən artıq olub. Türkiyənin baş naziri Əhməd Davudoğlu martın 14-də bəyan edib ki, Ankaradakı terror hadisəsilə əlaqədar 11 şübhəli şəxs saxlanılıb.

Məlum olub ki, iki avtobusun arasında minalanmış avtomobil partladılıb. Partlayış nəticəsində ölənlərin arasında bir terrorçunun də olduğu bildirilib.

Ankarada baş vermiş terror aktı ilə əlaqədar prezident Rəcəb Tayyib Ərdoğan bunları bəyan edib: “Həlak olanların yaxınlarına başsağlığı verirəm və yaralananların tezlikə şəfa tapmasını diləyirəm. Regiondakı qeyri-sabitlik üzündən son illər Türkiyə terroristlərin hədəfinə çevrilib”. Daha sonra o, əlavə edib ki, hazırda ölkədə terrorizmlə mübarizə əzmi artmaqdadır, “terroristlər diz çökdürüləcək”.

Dünyanın hər yerində Türkiyə paytaxtında 37 məsum insanın həyatını məhv edən terror aktını pisləyən bəyanatlar səsləndirilib və başsağlıqları verilib. Gürcüstan prezidenti Georgi Marqvelaşvili də bu münasibətlə Türkiyə dövlətinə başsağlığı ünvanlayıb. Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili də türk xalqına başsağlığı verib.

“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə təşkilatı” və “Yeni Yol” qəzeti olaraq biz də qardaş türk xalqının üzləşdiyi bu faciədən üzüldüyümüzü dilə gətirir, dərin hüznlə başsağlığı veririk, bu terroru təşkil edənləri lənətləyirik.

## GYMD-DƏ TƏLƏBƏ QIZLARLA GÖRÜŞ KEÇIRILIB

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyinin Qardabanidəki mərkəzi ofisində GYMD-nin Tbilisidə fəaliyyət göstərən “Qız Tələbə Yurdu” nda yaşayan qızlara “Qadınlara bir gün deyil,hər gün dəyər verək!” mövzusunda seminar keçirildi.

Seminarı GYMD-nin sədri Musa Hacıyev aparıdı. Natiq öz çıxışında adət və ənənələrimizdə, həmçinin Azərbaycan-türk mədəniyyətində qadına verilən yüksək dəyərdən danışdıqdan sonra, İslam dininin qadına verdiyi əhəmiyyəti vurğuladı. O, cəhalət dövründən misal gətirərək, qadının bir əşya kimi satıldığı zamanda İslamın qadını bu bataqlıqdan çıxarıb,



Cənnəti onun ayaqları altına sərməsini bir daha dilə gətirdi, qadınlara ildə bir dəfə yox, hər zaman dəyər verməyin lazım gəldiyini anlatdı.

Seminarın sonunda qonaqlara təşkilat adından hədiyyələr verildi.


İSA İSMAYILZADƏNİN ANADAN OLMASINDAN 75 İL KEÇİR — 2

QARATƏHLƏDƏ NOVRUZ TƏHLƏLİNİN ANIM GÜNÜ QEYD OLUNDU — 3

TÜRKİYƏNİN AVROPAYA YOLUNU ƏNGƏLLƏYƏN AMİLLƏR — 4

SİNİFDƏ QALAN MÜƏLLİMLİK — 5

TƏBİƏTİN ÖVLADLARI — 6

SƏYYADIN NƏVƏSİ SAYAT NOVA — 7

RƏSSAM RİZVAN İSMAYILIN BAKIDA SƏRGİSİ AÇILIB — 8


## TƏHLÜKƏSİZLİK LAYİHƏLƏRİ DAHA ÇOX DOSTLARIN QAZANILMASINA GƏTİRİB ÇIXARACAQ



Bunu IV Qlobal Bakı Forumunun açılışındakı çıxışında Gürcüstan prezidenti Georgi Marqvelaşvili deyib.

“Çox şadam ki, bu cür önəmli Forumda iştirak edirəm. Dost Azərbaycana, Bakıya gəlmək həmişə xoşdur. Azərbaycanda əməkdaşlıq və dostluq üçün geniş imkanlar var”, – Gürcüstan prezidenti qeyd edib.

Gürcüstan prezidenti bildirib ki, Gürcüstan müxtəlif işğalçı addımlardan əziyyət çəkib, indi də çəkir: "Rusiya ərazimizin 20 faizini işğal edib, əhalimizin 15 faizi gürcü olduğuna görə öz ölkəsiində köçkünə çevrilib. Biz böyük dövlətlərin təsiri altında yaşamaq istəmirik. Ötən il belə dramatik vəziyyəti dost Ukraynada gördük, Krım işğal olundu, ölkənin şərqində müharibə başladı. Qonşu ölkələr körpülərin yaradılmasına, tərəfdaşlığın formalaşdırılmasına çalışmalı, işğala yol verməməlidir”.

Prezident qeyd edib ki, Azərbaycan, Türkiyə və Gürcüstan birlikdə böyük enerji və nəqliyyat layihələri həyata keçirir: “Bu təhlükəsizlik layihələri daha çox dostların qazanılmasına gətirib çıxaracaq. Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu daha çox dost əldə etməyə səbəb olacaq. Gürcüstan dünya okeanına çıxışı olmayan 14 ölkəyə bu imkandan bəhrələnmək imkanı yaradır. Biz eyni layihələri Çindən, ABŞ-dan olan dostlarımızla həyata keçirməyə çalışırıq. Bizim mili maraqlarımıza təcavüz etmək olmaz. Düşünürəm ki, bu Forumda yeni imkanların tapılması üçün mühüm fikirlər səslənəcək”.

Gürcüstan prezidenti onu da qeyd edib ki, Cənubi Qafqaz Şərqlə Avropanın əməkdaşlığı üçün mühüm körpü rolu oynayır.

## USUPAŞVİLİ AZƏRBAYCAN-GÜRCÜSTAN TƏRƏFDAŞLIĞININ ƏHƏMİYYƏTİNDƏN DANIŞIB

Martın 7-də Gürcüstan parlamentinin sədri David Usupaşvili ölkə parlamentində akkreditə olunmuş jurnalistlərlə görüşüb.

Görüşdə Usupaşvili jurnalistlərin suallarını cavablandırıb.

David Usupaşvili martın 4-də Azərbaycanla Gürcüstan arasında təbii qazın nəqlinə dair imzalanmış memorandumun böyük əhəmiyyət kəsb etdiyini bildirib: "Biz yaxın və qonşu strateji tərəfdaş ölkələr kimi bir-birimizi çox yaxşı başa düşürük. Biz hər bir məsələdə həmişə razılığa gələ bilirik. Ölkələrimiz yalnız energetika sahəsində deyil, digər vacib sahələrdə də razılığa gəlməyi bacarır. Biz ölkələrimizin inkişafına xidmət edən belə görüşləri daha geniş kontekstdə inkişaf etdirməliyik".

D.Usupaşvili Gürcüstan-Azərbaycanın münasibətlərinin Cənubi Qafqaz regionunda xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib: " Mən bu yaxınlarda Yaponiyada oldum. Səfər çərçivəsində keçirilən görüşlərdə Gürcüstan-Azərbaycan strateji münasibətlərinin əvəzedilməz olduğunu vurğuladım".

## PAN Gİ MUN GÜRCÜSTANA İLK SƏFƏRİNİ EDƏCƏK

Gürcüstan xarici işlər nazirinin birinci müavini David Zalkaliani jurnalistlərə verdiyi məlumatda bildirib ki, Birləşmiş Millətlər Təşkilatının Baş katibi Pan Gi Munun Gürcüstana rəsmi səfəri gözlənilir. Yüksək səviyyəli qonağın səfər tarixinin vaxtı barədə isə dəqiq məlumat verilməyib.

Bu, Pan Gi Munun Gürcüstana ilk rəsmi səfəridir, bu vaxtadək o, ölkəmizdə yolüstü olub.

“Gürcüstan xarici işlər nazirliyi yüksək səviyyəli səfərlər üzərində, o cümlədən də BMT Baş katibinin səfəri üzərində işləyir. Tarix barədə mən sizə hələlik dəqiq məlumat verə bilmərəm. Bu, işgüzar prosesdir, biz bu səfərin ayrıntıları barədə yaxın vaxtlarda biləcəyik”, – Zalkaliani idarənin saytında yayımlanan videomüracitdə deyib.

David Zalkaliani Pan Gi Munun qarşıdakı səfərinin ölkəmiz üçün əhəmiyyətini də vurğulayıb.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

## *BAYRAMQABAĞI GİLEY-GÜZAR*

**Adamların üzü niyə gülmür? Onların üzündən təbəssümü kim silib, kim yuyub bilən varmı? Bəlkə elə adamlar üzlərindəki təbəssümü qəsdən gizlində saxlayırlar və ya təbəssümsüzlükdən bir maska, bir örtük, bir niqab kimi istifadə edirlər? Bilmirəm diqqət yetirmisinizmi, adamlar elə bil ruh kimi, kabus kimi dolaşırlar? İraq olsun, qulaqlara qurğuşun, onların üz-gözünə baxanda deyirsən ki, yüzdə yüz bu bədbəxtlərin başına dəhşətli faciə gəlib, indi də həmin faciənin təsiri altında bu dərdə düşüblər. Hərçənd ki, bunun xəyaldan özgə bir zad olmadığını da bilirsən. Nədən ki, hər kişinin qəlbi bir aslan yatağıdır və orada nə olduğunu, nə keçdiyini bir Allah bilir.**

Mən Allahın adını çağırıb, adamların niyə bu dərdə düşdüklərini, üz-gözlərindən gülüşün-təbəssümün haraya çəkildiyini ovcumun içi kimi bilirəm iddiamı səsləndirmək istəyirəm. Bir ara bu fikrimdən daşınmaq istədim. O üzdən ki, dedim, məni falçı-zad zənn edərlər. Sonra baxdım ki, bunu faş etməsəm, sizdən iraq, ölərəm.

Siftə onu söyləyim ki, mən şit-şit gülməyin, irişməyin-qırışmağın, hırıldamağın, diş ağartmağın əleyhinə olan birisiyəm. Nə yazıq ki, mənim zəhləm gedən bu emosiyaların hamısını da gərək gül kimi gülmək zəhrimarla açıqlayasan. Qaldı gülmək, üzünə təbəssüm qondurmaq səbəbə bağlı zaddır. Yəni səbəbsiz gülüş olmaz, səbəbsiz dodağın qaçsa, deyərlər ki, başı batanın, ağlı o söz olub. Səbəb demiş, adamlar səbəb tapmırlar ki, gülsünlər. Onların gülməsi üçün stimul olacaq nəsə yoxdur, bir tikə yağlı əppəyə dönüb, qeybə çəkilib. Bu səbəb tapılanacan da, inanmıram ki, bəni-insanın üzü gülsün. Özünüz deyin, hər saatbaşı qan-qada eşidən adam necə gülə bilər, hər məqamda özü kimi talesizlərə tuş gələn adamın gülməyinə nə ad vermək olar, süfrəsinə bir tikə çörək qoyanacan yüz dəfə, min dəfə abırdan düşən adamdan təbəssüm ummaq doğrudurmu? Hələ orasını demirəm ki, bankların əsarətinə düşən kəndlinin, fəhlənin, ziyalının gülüş harasına yaraşar?

Bank deyincə, xəzinə tapmış kasıb kimi sevindim. O üzdən ki, qoyduğum məsələnin çözülməsində bankların ətəyindən, daha doğrusu yaxasından yapışmaqla nəyəsə nail olacağıma inanıram. İndi orasını qulluğunuza ərz edim ki, kredit faizlərini ödəmək üçün əsir-yesir olan bu adamların üzündə gülüş nişanəsi, təbəssüm işartısı axtarmağın özü də az qala axmaqlıqdır. Yalnız bankdan krediti çəkəndə az-çox üzünə təbəssüm qonan adamlar aldıqları pulu göy-göy aylarla ordan-burdan üst-üstə qalaqladıqları borclara payladıqdan sonra, əllərində-ovuclarında bir şey qalmayınca dəvəsi ölmüş ərəbə dönməzlərmi, yasa batmazlarmı deyirsiniz? Əgər belə düşünürsünüzsə, mən sizi laqeydlikdə suçlaya, başqalarının dərdinə şərik olmamaqda günahlandıra bilərəm. Ancaq məni fikri dağınıqlıqda ittiham edənlər olsa da, sizi qınamaq fikrindən də uzağam. Çünki əksəriyyətinizin iş yerinizin olmadığını da bilirəm, iki-üç bankdan ağına-bozuna baxmadan kredit götürdüyünüzdən də xəbərim var, ticarətinizin yatdığından da qulağıma nələrsə dəyib. Yəni, kəsəsinə desəm, hamınız da bir əlli, bir ətəklisiniz. Hamınız da çətinə düşəndə ellə gələn qara günü bayram edənlərsiniz.

**Bayram demiş, bahar xanım da qapılarımızı döyməkdədir, axır çərşənbəni də yola verdikmi, yazdır demək. Ana təbiət elə indidən yazılara yaşıl yazısını yazmaqdadır, ayın 20-si gəldimi gecə-gündüz bərabərləşəcək, yeni bir il başlayacaq və yazılanları yaşamaqda davam edəcəyik. Amma bunun bayramı var, seyranı var, gələni var, gedəni var. Üstəgəl də bütün bunların qabağında duruş gətirməyin tələb olunur. Bir işin-gücün də yoxdur ki, üçdən-beşdən qazanıb uşaqların bayramlığını yola verəsən. Yenəmi banklara üz tutacaqsan, yenəmi borc üstünə borc yığacaqsan? Axı, deyəsən, bu banklar əksəriyyətin son ümid yerinə, çıxış yerinə çevrilib? Əli yanan yüyürür banka, azdan-çoxdan kreditini alır və başlayır borc içində çabalamağa. Bəs neynəsin, deyirsiniz? İşləsin. Harada? Yerini göstərin bu adamlar da gedib başlarına bir çarə qılsınlar, işləsinlər və əhli-əyal üçün bir şey tapıb gətirsinlər.**

## İSA İSMAYILZADƏNİN ANADAN OLMASINDAN 75 İL KEÇİR



Şair, tərcüməçi, publisist İsa İsmayılzadə 1941-ci il martın 15-də Qarayazıda anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1958-1963).

Ədəbi fəaliyyətə tələbəlik illərində "Aprel çiçəkləri" (1959) almanaxında və "Azərbaycan gəncləri" qəzetində (1961-ci il) çap etdirdiyi ilk şerləri ilə başlamışdır. O, Qardabanidə orta məktəbdə müəllim (1963-1964), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında elmi redaktor (1966-1968), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri, baş redaktorun müavini, "Ulduz" jurnalı redaksiyasında şöbə müdiri (1968-1981), "Azərbaycan" jurnalı redaksiyasında baş redaktorun müavini vəzifələrində işləmişdir (1981-ci ildən ömrünün sonunadək). 1994-cü ildən Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətinin musiqili verilişlər baş redaksiyasında musiqi mətnləri şöbəsinin müdiri kimi fəaliyyət göstərmişdir. Şeir və poemaları keçmiş SSRİ xalqlarının dillərinə, habelə bir sıra xarici dillərə tərcümə edilmişdir.

İsmayılzadə İsa Mustafa oğlu 1969-cu ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuş, 1980-ci ildə Azərbaycan Lenin komsomolu mükafatı laureatı almışdır.

Öz yaradıcılığında poetik tərcüməyə də xüsusi diqqət vermiş, sosialist ölkələri yazıçılarının Moskvada keçirilən birinci Beynəlxalq simpoziumunun (1977), Asiya və Afrika ölkələri yazıçılarının Yurmalada keçirilən seminar-müşavirəsinin (1978) iştirakçısı olmuşdur..

"Ulduzların ad günü", "İşıqlı yarpaqlar", "Torpaq nəğməsi", "Ömrümdən keçən qatar", "Salam, Yer kürəsi","Anamla söhbət", "Yellən-cəkdə yellənən külək", "Gedim anamdan soruşum", "Bir ömürlük gecə", "Seçilmiş əsərləri", "Vurağan, tutağan, yatağan" kimi sanballı kitabların müəllifi olan müqtədir şairimiz 1997-ci il iyulun 14-də vəfat etmiş və Qardabanidəki məzarlıqda dəfn olunmuşdur.

## RESPONDENTLƏRİN ÇOXU GÜRCÜ XALQINI SİYASİLƏŞMİŞ HESAB EDİR

"Kviris palitra" qəzeti 29 fevral-3 mart tarixində "Gürcü xalqı" mövzusunda sosioloji sorğu keçirib. "Sizin fikrinizcə, bu gün gürcü xalqına daha çox hansı tərif uyğun gəlir?" sualına 483 oxucu cavab verib.

Respondentlər redaksiyanın təqdim etdiyi siyahı əsasında reytinqi tərtib etməli idilər. Siyahıda ən yüksək bal 9, ən aşağı bal isə 1 olub.

Sorğunun spesifikasına uyğun olaraq, reytinq göstəricisi özlüyündə orta balı əks etdirir, elə "Kviris palitra"nın hazırladığı reytinq də buna əsasən tərtib edilib.

Nəticələr belədir: siyasiləşmiş – 7,43; yorğun – 6,65; ümidisiz – 6,37; dözümlü – 6,13; vətənpərvər – 4,69; nikbin – 4,23; mübariz – 3,72; laqeyd – 3,18; bədbin – 2,60.

## GÜRCÜSTANIN YENİ ZİREHLİ DÖYÜŞ MAŞINI HAZIRLANIB



"Delta" hərbi elmi-texniki mərkəzi 26 mayda, yəni Gürcüstanın müstəqillik günündə yeni döyüş maşını nümayiş etdirəcək.

"Bu yeni tip döyüş maşını olacaq, bu vaxtadək nə Gürcüstanda, nə Azərbaycanda, nə də Ermənistanda analoqu olmayıb", – "Delta"nın hərbi-texniki şöbəsinin əməkdaşı Qiqi İnaşvili deyib.

Mərkəz yeni maşın üzərində işləri yaxınlarda tamamlayıb. "Delta" onu Müstəqillik gününə sürpriz kimi hazırladığından, maşının xarakteristikası və təsviri məxfi saxlanılır.

Yalnız o məlumdur ki, yeni döyüş maşını "Delta"nın əvvəllər buraxdığı "Didiqori" zirehli avtomobillərinə bənzəmir. Mərkəzdə ümid edirlər ki, yeni maşınlara beynəlxalq bazarda daha çox tələbat olacaq.

"Delta" 26 mayda yeni maşından əlavə, modernləşdirilmiş pilotsuz helikopterləri yenidən nümayiş etdirməyi planlaşdırır. Uçuş aparatı iki altılüləli M134 Minigun tipli pulemyot və səkkiz idarə olunmayan aviasiya raketi ilə təchiz edilib. Uçuş hündürlüyü üç kilometr, maksimal sürəti isə 180 km/saatdır.

Mərkəzin ilk hazırladığı maşınlara "Lazika" PDM və "Didiqori" seriyasından olan zirehli avtomobillər daxildir. "Didiqori-1" şəxsi heyəti döyüş meydanına aparmaq, "Didiqori-2" kəşfiyyat əməliyyatlarını həyata keçirmək üçün nəzərdə tutulub. "Didiqori-3" rabitəçilər üçün aparatlarla təchiz edilib. "Didiqori-4" və ya Medevac yaralıları döyüş meydanından çıxarmağa hesablanıb. Medevac sürətini saatda 120 kilometrə çatdırmaqla mürəkkəb coğrafi və iqlim şəraitində eyni vaxtda dörd yaralı daşıya bilir.

## GÜRCÜSTAN SİLAHLI QÜVVƏLƏRİNDƏ QAUPTVAXTA LƏĞV EDİLİR

Gürcüstan silahli qüvvələrində qauptvaxta ləğv edilir. Müvafiq qanunvericilik dəyişiklikləri təsdiqlənmək üçün hökumətə təqdim olunub.

Müdafiə nazirliyindən bildirilib ki, idarənin məqsədlərindən biri indiyədək mövcud olan çatışmazlıqların aradan qaldırılmasıdır. Hərbi qulluqçuların qauptvaxtada saxlanılması məhz bələlərinə aiddir. Qauptvaxtaya salma insan hüququna ağır müdaxilədir.

" SQ-də mövcud olan praktikanın təhlilindən çıxış etdikdə, qauptvaxtaya yerləşdirmə təsirli deyil və silahlı qüvvələrdə nizam-intizamı möhkəmləndirməyə yardım etmir. Yeni inzibati nizamnaməyə daha humanist yanaşma məhz bununla şərtlənir. Yeni nizamnaməyə görə, SQ-də hərbi qulluqçulara münasibətdə tətbiq edilən inzibati həbs ləğv ediləcək.

Nazirlik tərəfindən atılan bu hummanist addım nizam-intizama diqqətin zəifləməsi demək olmayacaq. Əksinə, bir çox inzibati xətalara nazirliyin yanaşması daha ciddi və adekvat olacaq", – nazirlik bildirir.

# QARATƏHLƏDƏ NOVRUZ TƏHLƏLİNİN ANIM GÜNÜ QEYD OLUNDU




Martın 12-də Qaratəhlə kəndində böyük ozan, irfan şairimiz Novruz Təhləlinin xatirəsinə həsr olunmuş anım tədbiri keçirildi. Kənd klubunda düzənlənən mərasim təşkilatçıların səyi ilə ustad şairin adına layiq təşkil olunmuşdu. Paytaxt Tbilisidən,Bakıdan, Rustavidən, Qardabanidən və digər bölgələrimizdən anım mərasiminə qatılan ziyalılar, saz-söz adamları, rəsmi şəxslər Novruz Təhləlinin söz dünyasının dərinliyinə heyranlıqlarını gizlədə bilmədilər.

Tədbirin aparıcısı Təhlə elinin incə ruhlu şairi Ziyadxan Əhmədovun duyğusal giriş sözündən sonra səhnəyə dəvət olunan Qaratəhlə ictimai məktəbinin şagirdlərinin ifasında Novruz Təhləlinin "Gözləsin" rədifli divanisi ifa olundu. Sonra ustad aşıq Ziyəddin Keşəli şairin "Üstədir" rədifli divanisi ilə tədbiri davam etdirdi.

Şair Allahverdi Təhləlinin çıxışında Novruz Təhləlinin həyat və yaradıcılığı barədə toplaşanlara geniş məlumat verildi. Yeri gəlmişkən qeyd edək ki, Allahverdi Təhləli şair Novruzun həyat və yaradıcılığından bəhs edən və onun şeirlərinin əksəriyyətini əhatə edən "Dağlar, əyil yar görünsün" fundamental kitabın müəllifidir.



Rustavidəki 3 saylı məktəbin şagirdi Nurcan Əliyevanın ifasında şairin "Tapmadım" şeiri səsləndi. Daha sonra öz məlahətli səsi və mahir ifası ilə gənc aşıq Ramin Qarayev səhnəyə çıxaraq, "İbrahimi" havası üstündə şairin "Cəmi dağların başıdır" misrası ilə başlayan və dillər əzbəri olan gəraylısını səsləndirdi.

Səhnəyə çıxan Qaratəhlə ictimai məktəbinin XI sinif şagirdi Ətirnisə Həsənova Novruz Təhləlinin "Bülbül" şeiri ilə mərasim iştirakçılarına xoş anlar yaşatdı. Aşıq Elşad Əfəndiyev "Mansırı" üstündə şairin "Yaralıyam" rədifli qoşması ilə könülləri oxşadı.

Gənc aşıq Məsim Rəcəbov "İncəgülü" üstündə şairin "Eləmə" rədifli qoşqusunu, Rustavidəki 3 saylı məktəbin VIII sinif şagirdi Səmar Əliyeva "Əfəndim" şeirini tədbir iştirakçılarının diqqətinə çatdırdı. Aşıq Zindofilin, Qaracalar məktəbinin şagirdi Lalə Sofiyeva və kənd sakini İsmayıl Qəribovun çıxışı da yaddaqalan oldu.

Aşıq Ziyəddinin və aşıq Ramin Qarayevin Novruz Təhləlinin anım günündə ifa etdikləri havalar mərasimə toplaşanlara kövrək anlar yaşatdı.

Novruz Təhləlinin qohumu, Qaratəhlə ictimai məktəbinin müəllimi Məhərrəm Cəfərovun Novruz Təhləli ilə bağlı söylədiyi xatirələr könülləri riqqətə gətirdi.

"Varlıq" mədəniyyət mərkəzi və Azərbaycan YB-nin Gürcüstan bölməsinin rəhbəri şair Rafiq Hümmətin çıxışında Təhləli Novruzun yaradıcılığının müstəsna əhəmiyyətinə diqqət yetirildi.

Şairin soyundan olan 85 yaşlı Astan Hüseynovun "Orta sarıtel" üstündə gəzişməsi dinləyənləri heyran etdi.

Mərasimdə çıxış edən şair Nurafis Novruz Təhləlinin ədəbi irsinin gələcək nəsillər üçün bir örnək olduğunu dilə gətirdi.

Aşıq Mirzənin, aşıq Orxanın və Əflatun Hüseynovun böyük ozanın söz dünyasından alınmış incilərlə bəzənmiş ifası dinləyənlərə xoş duyğular bəxş etdi.

Əflatun Əfəndiyev böyük sənətkarımız aşıq Kamandarın arxivində saxlanılan Novruz Təhləlinin şeirlərindən gətirdiyi örnəklərlə eşidənləri heyran etdi. El ağsaqqalı Novruz Əlimədədovun çıxışı Novruz Təhləli dünyasının ayrı-ayrı məziyyətlərini gözlər önündə canlandırdı.

Sonda dərviş könüllü irfan şairimiz Novruz Təhləlinin anım mərasiminin düzənlənməsində, araya-ərsəyə gəlməsində maddi və mənəvi dəstəyini əsirgəməyən, böyük ürək sahibi Elcan Abdullayevə sufi şairimizin sözünün işığına toplaşanlar adından təşəkkürümüzü bildiririk.

Elnur SƏFƏROV

# QADINLARI BİR GÜN DEYİL, HƏR GÜN SEVƏK

***Mart ayı girdiyindən bu yana yəni 15 gün ərzində ölkəmizdə iki, yəni 3 və 8 mart günləri, dünyada isə bir, yəni 8 mart tarixi qadınlara xas bayram günü kimi qeyd olundu. Bəzilərinə görə nə gözəl, qadına dəyər verilir şəklində qarşılanacaq, hətta məni qınayan da tapılacaq ki, a belə filan oğlu filan, bunun nəyi pisdir ki? Bəli, mənə görə pisdir. Çünki mən bir müsəlman olaraq, bir İslam dini mənsubu olaraq bunu normal qəbul edə bilmirəm. Ona görə qəbul edə bilmirəm ki, ilin sadəcə bir və ya iki gününü ayırdığımız o qadınlardan biri də mənim anam, bacım, həyat yoldaşımdır. Axı biz onları Allahın bir əmanəti olaraq almışıq. Və onlara sadəcə bir və ya iki gün deyil, ömür boyu dəyər verməliyik.***

Digər bir yandan İslam dini 70 illik ateizm dövründə insanlara elə bir şəkildə təbliğ olundu ki, hər kəs İslamın qadına verdiyi dəyəri sıfırın altında bilir. Mən də bu bayram deyilən günləri fürsət bilərək İslamın və müsəlmanların ailədə və cəmiyyətdə qadına verdiyi dəyəri sizlərə çatdırmaq istədim.

İslamiyyət qadına çox böyük və şərəfli bir məqam vermişdir. Cənabı Haqq İsra Surəsinin 28-ci ayəti kərimənsində "Ana-atanıza of belə deməyin…" buyurmuşdur.

Həzrət peyğəmbər də, "Cənnət anaların ayaqları altındadır." (Suyuti, el-Camius-sağir, 3642) buyurmaqla analara çox böyük bir mövqe vermişdir. Bu münasibətlə, İslamda qadın-kişi bərabərliyi olmadığı şəklindəki etirazlara qısaca bir göz ataq:

Cənabı Haqq sonsuz hikmət sahibidir. Məxluqatını, hikmətinin sirrinə görə, istədiyi kimi yaradıb. Bəzisinə digərindən fərqli qabiliyyətlər və üstünlüklər verib. Heç bir məxluqun, bu hökm və iradəyə müdaxilə etməyə haqqı yoxdur.

Allah, kişilər ilə qadınları bəzi yönlərdə bərabər yaratmamışdır. Bu iki cinsi hər cəhətlə bərabər etməyə çalışmaq, ancaq fitrəti dəyişməklə mümkündür, bu isə mümkünsüzdür. Kişinin və qadının mahiyyətləri bir çox cəhətlərlə fərqlilik daşıyır. "Hökm əksəriyyətə görə verilir" qaydasından hərəkətlə belə deyə bilərik: Kişilər, "güc və qüvvətdə, təşəbbüs qabiliyyətində, cəsarətdə", qadınlar isə, "şəfqətdə, həssaslıqda, vəfa və sədaqətdə" daha irəlidədirlər. İstər qadının, istərsə kişinin bir-birindən üstün yönləri vardır. Ailə damı altında, hər iki tərəfin üstünlükləri birləşdirilər və beləliklə ailənin ehtiyacları ilə birlikdə, ailə səadəti də təmin edilmiş olar.

Kişilərin güc və qüvvət cəhətdən daha irəli olmaları səbəbiylə, Cənabı Haqq, ailənin məsuliyyətini, birinci dərəcədə kişilərə yükləmişdir. Kişiləri qadınların ehtiyaclarını yerinə yetirmək, onları maddi və mənəvi hər təhlükədən qorumaqla mükəlləf etmişdir. Bu həqiqət bu ayəti kərimədə açıqca bəyan buyurulmuşdur; "Kişilər qadınlar üzərinə idarəçi və qoruyucudurlar. Çünki bir dəfə Allah bəzilərini digərlərindən üstün etmişdir. Bir də kişilər mallarından (qadınlarına) mehr verərlər. Onun üçün yaxşı qadınlar, itaətkardır. Allah onları (ərlərinin himayəsinə verməklə) qoruduğu kimi, onlar da qeybi (namuslarını və ərlərinin mallarını) qoruyarlar." ( Nisa Surəsi, 34)

İslamiyyət kişinin qadına qarşı etdiyi bu lütfkarlıqlara qarşı qadına da ərinə qarşı itaəti vacib etmiş və bu itaəti ibadət saymışdır. Bu ayəti kərimə bir tərəfdən kişilərin hakimiyyətini, digər tərəfdən də qadınların qiymət və fəzilətini dərs verir.

Bu var ki, ailə rəisi olmaq başqadır, Allah qatında üstün olmaq daha başqadır. Qurani Kərimə görə, üstünlüyün ölçüsü cinsiyyət deyil, təqvadır. Təqva isə ən qısa ifadəsiylə, Allahdan qorxmaq, günahlardan çəkinmək, Onun razı olmadığı hərəkət, rəftar, hal və sözlərdən uzaq dayanmaq, Onun razılığına çatmağı ən böyük məqsəd bilib, bunu itirməkdən son dərəcə qorxmaqdır.

Ailə içindəki nizam və ahəngin davamı üçün kişinin ailə rəisi olması və qadının da ona itaət ilə mükəlləf qılınması zəruridir. Mütləq bərabərlik bu itaəti qırmaqla ailədəki nizamı pozar; hüzur/dinclik və səadəti məhv edər və çox vaxt boşanmalara gətirib çıxarar.

Qadının ərinə itaəti nə qədər lazım isə, kişinin də qadının haqq və hüququnu qoruması o qədər vacibdir. Buna görə İslamiyyətdə "qadınların kişilərə əsir olduqları" iddiası tamamilə yanlışdır. Əksinə İslamda qadın kişidən daha çox zövq və səfa imkanına malikdir. Çünki İslam, kişini qadının mehrini təmin etməklə mükəlləf edərkən, qadını bundan azad tutmuş, bunun yerinə qadına ən zövqlü bir vəzifə olaraq "uşaq tərbiyəsini" vermişdir. Bunun üçündür ki, Allah, şəfqət hissini qadınlara, kişilərdən daha çox lütf etmişdir.

Bəzi şəxslər, İslamın örtünmə əmrini qadının azadlığının məhdudlaşdırılması şəklində təqdim edirlər. Əvvəlcə bunun bilinməsi lazımdır ki, qadınların örtünmələri bütün səmavi dinlərin ortaq hökmüdür. Rahibələrin örtünmələri bunun açıq bir dəlilidir.

Digər yandan, örtünmə yal-



nız qadınlar üçün deyil, bütün insanlar üçün fitri bir vəzifədir. Heç bir millətdə kişilərin və ya qadınların çılpaq olaraq gəzdikləri görülmür. Ancaq örtünmənin sərhəddində münaqişə vardır. İslamiyyətə görə qadın, kənar kişilərin şəhvətlərini təhrik edəcək bütün üzvlərini örtməklə vəzifəlidirlər. Beləcə, dünyada şərəf və ləyaqətini, axirətdə isə əbədi səadətini qurtarmış olar. Digər bir prizmadan baxıldıqda, qadınlar, İslamın qadağan etdiyi şəkildə açılıb saçılmaqla kişiləri günaha soxmaqda və "səbəb olan işləyən kimidir" hökmün nəticəsində onların günahlarının bir qatı da özlərinə yazılmaqdadır. İslam örtünmə əmriylə qadınları bu təhlükədən də mühafizə etmiş olur.

Qadın azadlığı deyə ortaya atılan düşüncələr, qadınların pozğunluğa düşmələrinin səfalətlərinin nəticəsini ortaya çıxarmış, izzətlərini zillətə çevirmişdir. İslamiyyət isə onların iffət və namuslarını mühafizə altına almaqla, şərəf və ləyaqətlərini qorumuşdur.

***Nəticə olaraq da onu deyək ki, sadəcə 3 və 8 martda deyil, hər gün çiçək alaq. Çiçək almasaq belə dilimizdən düşən sözlər gül-çiçək ətrində və zərafətində olsun ki, onların könlünü oxşasın.***

Hacı BƏKİROĞLU

# GÜRCÜSTANDA ƏN ÇOX TƏLƏB OLUNAN PEŞƏLƏR

Gürcüstanın əmək, səhiyyə və sosial müdafiə nazirliyinin araşdırmalarına əsasən, ölkədə ən çox tələb olunan peşələr müəyyənləşdirilib. Bu araşdırmaya görə, Gürcüstanda ən çox pedaqoq, tibb işçisi, buxalter, ofsiant və mağazalarda satış üzrə assisentlərə ehtiyac duyulur.

Nazirlik bir çox təşkilatlarda ciddi kadr çatışmazlığı olduğunu müəyyənləşdirib.

# TÜRKİYƏNİN AVROPAYA YOLUNU ƏNGƏLLƏYƏN AMİLLƏR

***Avropa İttifaqına tamhüquqlu üzv olmaq Türkiyənin xarici siyasətində ən priaritet məsələlərdən biridir. Yarım əsrdən çoxdur ki, Türkiyə Avropa ailəsinin bir parçası olmaq üçün tədbirlər planı reallaşdırmaqdadır. Lakin, keçən əsrin 60-cı və 80 ci illərində qardaş ölkəninin siyasi elitasında baş vermiş hərbi dövlət çevrilişləri Türkiyənin demokratik imicinə zərbə vuraraq, onun bu istəyini gerçəkləşdirməsini təxirə salmışdır. Yeni əsin başlanğıcından bütün dünyada qlobal iqtisadi böhranın tüğyan etdiyi bir zamanda dinamik inkişaf edən Türkiyənin Avropa İttifaqina qəbul edilməsi üzrə danışıqlar prossesinin başlanılmasının qarşısını alacaq heç bir səbəb qalmamış və 2005-ci ilin oktyabrında Ankara ilə adıgedən qurum arasında müzakirələrə start verilmişdir. Həmin vaxtdan bəri 10 ildən artıq zaman keçməsinə baxmayaraq, Avropa İttifaqının qapıları yenə də Türkiyənin üzünə bağlıdır. Bunun səbəblərinə dair bir necə subyektiv fikir söyləmək və ya ehtimal irəli sürmək olar.***

İlk öncə Türkiyənin müsəlman dövlət olması faktoru nəzərdən qaçmamalıdır. Tarix boyu özünün fundamental ənənələrini formalaşdıran xristian Avropası prespektivdə Türkiyənin simasında müsəlman bir dövlətin "Köhnə Qitədə" dominant mövqe tutmasından ehtiyatlanır. Ona görə də İttifaqın aparıcı dövlətləri Türkiyənin qarşısına Ankaranın qəbul edə bilməyəcəyi süni əngəllər yaradırlar. Konservativ idealoji, milli və dini dəyərlərə sadiqliyi ilə seçilən, "kənar göstərişlərə" məhəl qoymayan türk iqtidarı da Avropa hegomonlarının ürəyincə deyil. Türkiyənin qeyd olunan təşkilata üzv qəbul edilməməsinə qarşı ən çox "canfəşanlığı" Fransanın keçmiş prezidenti Nikola Sarkozi edirdi. O, mövqeyini Türkiyənin coğrafi baxımdan Avropa ilə heç bir əlaqəsinin olmaması ilə izah edirdi. Eks-prezidentin "Avropa müəyyən edilmiş sərhədlərini məhdudlaşdırmalıdır" fikri ilə nəyə eyham vurduğu bəlli idi. Əslində, coğrafi bəhanənin arxasında müsəlman amili gizlənirdi. Bu faktı 1997-2010-cu illər ərzində Böyük Britaniya hökümətində daxili İşlər, xarici İşlər və ədliyyə nazirliklərinə rəhbərlik etmiş Cek Strou öz memuarlar kitabında təsdiq edir. Onun qeydlərinə görə, Avropa İttifaqına üzv qəbul edilmiş heç bir namizəd ölkəyə Türkiyəyə olan qədər neqativ münasibət bəslənməmişdir.

Vurğulanan "islam amili" faktlarını təsdiq etmək üçün son zamanlar Avropaya axın edən müsəlman qaçqınlara olan münasibət və onları "Sarkozi Avropasının" sərhədləri kənarında saxlamaq ideyasının da altını cızmaq olar. Miqrantların Avropaya köç etməsinin qarşısını almaq üçün Avropa İttifaqı ölkələrinin Ankara ilə bazarlıq etməsi utancverici haldır. Onların Türkiyə ərazisində yerləşdirilməsi və bunun müqabilində türk hökumətinə İttifaq ölkələri tərəfindən 3 milyard avro maliyə yardımı olunması təklifi islamın Avropaya girişinin qarşısını alınması anlamına gəlir. Beləliklə də sözdə dinlərarası və mədəniyyətlərarası dialoq və inteqrasiyadan dəm vuran Avropanın nəzəri dünyagörüşü ilə təcrübədə əməli bir-birini tamamlamır.

***Əgər Türkiyə Avropa İttifaqına daxil olarsa, Türkiyənin var olduğu coğrafiya və onun sərhədlərində sülh, beynəlxalq təhlükəsizliyin təmin edilməsinə yüksək stimul verəcəyi fikri səhv dəyərləndirilməməlidir. Çünki, dünyada ən "dəbdəbəli" regional təşkilat öz sərhədləri yaxınlığında münaqişə ocaqlarının varlığını istəməz. Bu isə Yaxın Şərq probleminin çözülməsində həlledici faktor ola bilər.***

Sahib MUSTAFA

## ALMANİYA GEORGİ VANYANI ERMƏNİ MİLLƏTÇİLƏRİNDƏN QORUYACAQ



Westdeutsche Rundfunk, Kulturradio və digər alman kütləvi informasiya vasitələrinin martın 3-də yaydığı məlumata görə, təqiblə və ölüm hədəsi ilə üzləşən sülh tərəfdarı Georgi Vanyan siyasi motivlərə görə təqib olunan şəxsləri dəstəkləyən fondun (Hamburger Stiftung für politisch Verfolgte) dəvəti ilə bir illiyinə Hamburqa köçür. Fondun press-relizində Vanyanın "Təkəli prosesi" adlandırılan prosesdəki rolu qeyd olunur. Cənubi Qafqaz ölkələrindən olan vətəndaş cəmiyyəti və sülh yaradıcı fəalların nümayəndələrinin ənənəvi görüş yerinə çevrilən Təkəli Gürcüstanın kəndidir, üç Cənubi Qafqaz ölkəsinin sərhədində yerləşir. "Kino və teatr rejissoru Georgi Vanyanın səyilə Təkəli regional sülh və vasitəçilik məkanına çevrilib. Burada elm və incəsənət xadimlərinin, jurnalistlərin iştirakı ilə müntəzəm olaraq Cənubi Qafqazda münaqişələrin həll edilməsinin mümkün strategiyalarının müzakirə olunduğu tədbirlər keçirilir. Hər il də "Təkəli prosesi"nin iştirakçıları hədə, təqib və hücumlara məruz qalırlar", – məlumatda bildirilir.

"Ermənİ-Azərbaycan sülh prosesinə daxil olması, həmçinin siyasi təbliğatın istənilən formasından imtina etməsi ilə əlaqədar olaraq, Georgi Vanyan xüsusi təqib olunur. Ermənistan hökumətinin tərkibindəki millətçilər hökumətdən kənar millətçi qüvvələrlə birlikdə fəalı öldürməklə hədələyirlər", – press-relizdə qeyd olunur.

"Vanyan 2012-ci ildə Azərbaycan filmlərindən ibarət festival təşkil etmişdir. Festival ideyası İngiltərə, Amerika və Almaniya tərəfindən dəstəkləndi. Lakin Ermənistandakı millətçi qüvvələr onun keçirilməsinin əleyhinə çıxdılar. Festivalın radikal əleyhdarları nümayişlər keçirdilər, Georgi Vanyana hədə dolu telefon zəngləri yağdırılırdı, internetdə də onu öldürməklə hədələdilər. Rejissorun üzərinə real həyatda da hücum etdilər. Təhlükə ilə əlaqədar festivalı təxirə salmaq qərara alındı", – press-relizdə xatırladılır.

"2013-cü ildə Vanyan Bundestaqın "Parlamentarilər parlamentariləri dəstəkləyir" proqramına daxil edilmişdir. Sülh keşikçisi və hüquq müdafiəçisi olan Vanyan yaranmış gərgin xarici və daxili siyasi vəziyyətə görə, yenə də ictimai hücum və nifrət obyektinə çevrilib. Televiziya onu "milli satqın" kimi ləkələdikdən sonra, onun evinə yenidən hücumlar başlayıb. Bizim üçün xoşdur ki, Georgi Vanyan Elbadakı metropoliyada bir il təhlükəsiz şəraitdə yaşaya biləcək", – siyasi motivlərə görə təqib olunan şəxsləri dəstəkləyən Hamburq fondu məlumat verib.

Hazırladı: Rəsul SULEYMANOV

## RUSİYA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN YUMŞALACAĞI GÖZLƏNİLİR

Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu gələn ay Rusiya ilə münasibətlərdə yumşalma gözlədiklərini açıqlayıb.

Rusiya-Türkiyə İş adamları Birliyinin nümayəndələrini qəbul edən nazir gərginliyin uzun sürməyəcəyini deyib:

"Prezident Rəcəb Tayyib Ərdoğan hadisədən dərhal sonra Rusiya prezidenti ilə görüşmək istədi. Amma Vladimir Putin cavab vermədi. Üzüntümüzü ifadə etdik, istəmirdik belə olsun. Bu mənfi vəziyyətdən çıxış yolu kimi komissiya yaradılmasını təklif etdik, yenə cavab gəlmədi. Bizim vəzifəmiz diplomatik kanalları işlətməkdir. Aprel ayında yumşalma gözləyirik".

Nazir iş adamlarına səbirli davranmağı məsləhət görüb: "Mənə qalsa, səbirli olub, işə davam edərsiniz. Siyasətin də, ticarətin də riski var. Mən iş adamı olsaydım, sonuna qədər gedər, geri çəkilməzdim".

## TURKİSH AİRLİNES-İN XALİS GƏLİRLƏRİ 32% ARTIB

2015-ci ilin yekunlarına görə əməliyyat gəlirləri 1,69 milyard dollar təşkil edən Turkish Airlines aviaşirkəti tarixində ilk dəfə milyardlıq baryeri keçib. 2014-cü illə müqayisədə xalis gəlir 32% artaraq, 895 milyon dollara çatıb. 2015-ci ildə Turkish Airlines-in reallaşdırmadan mədaxili 10,52 milyard dollar təşkil edib.

Şirkətin daşıdığı sərnişinlərin sayı 2015-ci ildə 13,6% artaraq, 61,2 milyon nəfərə çatıb. Bu sərnişinlər 453 min reyslə daşınıb.

"Turkish Airlines valyuta bazarındakı qeyri-sabitliyə və qlobal aviasiya sənayesindəki rəqabət mühitinin kəskinliyinə baxmayaraq, dünyanın az-çox gəlirli aviakompaniyaları arasında öz mövqeyini möhkəmləndirib", – Turkish Airlines-in idarə heyətinin sədri İlkər Aycı qeyd edib.

Hal-hazırda Turkish Airlines dünyanın 284 şəhərinə, o cümlədən 49 daxili və 235 beynəlxalq hava limanına uçuşlar həyata keçirir. Şirkətin uçuş coğrafiyası 113 ölkəni əhatə edir. 2015-ci ildə San-Fransisko,




Mayami, Maputo, Taypey, Manila, Mavrikiy və Zaporojye kimi yeni istiqamətlər əlavə olunub. Şirkətin ixtiyarında 304 müasir layner var. Onların 219-u dar füzelyajlı, 75-i geniş füzelyajlı, 10-u isə yük təyyarəsidir ki, bu da aviaşirkəti dünyanın aparıcı aviadaşıyıcılarından birinə çevirib.

## RUSİYA BMT-NİN İNSAN HÜQUQLARI OFİSİNİ BAĞLAYIR

Rusiya hökuməti BMT-nın Moskvadakı insan hüquqları ofisini bağlamaq niyyətini bəyan edib. Reuters xəbər verir ki, bu barədə BMT-nin insan hüquqları üzrə Ali komissarı Raad əl-Hüseyn məlumat verib. "Məni hökumətdən alınan siqnallar, daha çox da bizim Moskvadakı idarəmizi bağlamaq niyyəti həyacanlandırır" – o, bəyan edib.

Onun sözlərinə görə, bu, başqa cür düşünənlərin məkanının daraldılmasıdır.

Əl-Hüseyn həmçinin qeyd edib ki, "insan hüququ müdafiəçiləri və qeyri-hökumət təşkilatları üçün məkanın daraldılması şəraitində" Rusiya BMT ilə əməkdaşlığı genişləndirməyi davam etdirməlidir, nəinki onu daraltmalıdır.

## RUSİYA QOŞUNLARINI SURİYADAN ÇIXARIR

Tapşırıqlar ümumən yerinə yetirilib.

Rusiya prezidenti Vladimir Putin martın 15-dən başlayaraq ölkəsinin Suriyadakı əsas qüvvələrinin çıxarılmasına başlamağı əmr edib.

Putin çıxışı zamanı Müdafiə Nazirliyinin qarşısında qoyulmuş vəzifələrin ümumilikdə yerinə yetirildiyini bildirib.

"Buna görə əmr edirəm ki, sabahdan bizim Suriya Ərəb Respublikasındakı hərbi qruplaşmamızın əsas hissəsinin çıxarılmasına başlanılsın", - Putin xarici işlər naziri Sergey Lavrov və müdafiə naziri Sergey Şoyqu ilə görüşdə bildirib.

Öz növbəsində Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bəyan edib ki, Putin SƏR-nın prezidenti Bəşər Əsədlə qoşunları Suriyadan çıxarmaq haqqında qərarı müzakirə edib və razılaşdırıb.

Müdafiə naziri Şoyqunun sözlərinə görə, Rusiya qoşunları Suriyada RF-dan olan 2 mindən artıq silahlını məhv edib.

Ancaq beynəlxalq hüquq müdafiə təşkilatları Rusiyanı qadağan olunmuş silahlardan istifadə etməkdə və çox sayda dinc əhalini məhv etməkdə günahlandırırlar.

# SİNİFDƏ QALAN MÜƏLLİMLİK

Müəllimlik, hər şeydən əvvəl bir tanrı sənətidir. – Bu sözlər bizim Əflatun kimi tanıdığımız, qədim yunan filosofu Platon tərəfindən hələ bizim eradan əvvəl dördüncü əsrdə söylənmişdir. Makedoniyalı İsgəndər isə valideynlərinin onu göydən yerə endirdiyini, müəlliminin yerdən göyə qaldırdığını ərz edirdi. Həzrəti Əli ona bir hərf öyrədəcək müəllimin, köləsi ola biləcəyini söyləyir. Bu şəxsiyyətlər yuxarıda sadaladığım fikirləri ilə bizə tək müəllim sevgilərini və ya həsrətlərini çatdırmaq məqsədi daşımayıblar. Bu insanlar dünyəvi, dünya üçün həyati əhəmiyyət daşıyan bir məqama toxunublar. Müəllimlik müqəddəsdir. Bu sözlər, fikirlər sizlərə də yad deyil. Nə də mənim niyyətim bunları xatırlatmaq deyil. Sadəcə özüm üçün təkrar etdiyimi də fərz edə bilərsiniz.

Lakin, heç bir fərzə gümana sığmayan məsələ var. Müəllimlik müqəddəsdir. Müəllim ən şərəfli peşəyə sahib olan insanın adıdır. Ancaq, əfsuslar olsun ki, hər şey güllük- gülüstanlıq deyil, heç də müəllim mövzusunda aparacağımız danışıqlar ürəkaçan qəbildən deyil. Dünyada, inkişaf etmiş dövlətlərdə mənzərə başqa olsa da, bizdə hal uçurum kənarı kimidir. Bir neçə gün əvvəl Gürcüstanda yanvar ayında fənn imtahanları verən orta məktəb müəllimlərinin imtahan nəticələri açıqlandı. Rəsmi məlumatlara görə, imtahan verən müəllimlərin 83 faizi tələb olunan barieri keçə bilməyib. Bəli, cəmi 17 faiz müəllim öz fənnindən verdiyi imtahanda bacarmağa , alnı açıq çıxmağa müvəffəq olub. Təsəvvür edirsinizmi, ölkəmizdə imtahana daxil olan müəllimlərin 6 500-dən çoxu, yəni 83 faizi sinifdə qalıb. Barieri keçən 17%-in göstəriciləri də göz oxşayan deyil. Bəs bu vəziyyətin nə qədər böyük faciə olduğunun neçə faizimiz fərqindəyik?



Yazıq ki, bu məsələdə də barieri keçən 17 %-dən çox olmayacaq. Nəticələr bircə gündə mediyada, internetdə və sosial şəbəkələrdə yayıldı, dərhal mövzu ətrafında müzakirələrə start verildi. Gözlənilən, hər zaman olan yenə oldu və müəllimlər qınaq hədəfinə çevrildi. Bütün bilmişlər bir- bir oxlarını atmağa başladılar. "Müəllim öz üzərində işləməlidir. Bu nəticələr biabırçıdır. Müəllimlərin filan qədəri işdən atılmalıdır və s. " kimi fikirlər, dahiyanə ifadələr müəllimlərə ünvanlandı. Bəli müəllim öz üzərində işləməlidir, müəllim hər gün oxumalı, şagirdləri – yəni gələcəyimizi işıqlandırmaq üçün əlindən gələni etməlidir. Buna kimsənin etirazı olduğunu düşünmürəm. Kamil palançı, yarımçıq papaqçı məsələsini də unutmamışam, unutmaq fikrim yoxdur. Lakin, günümüzdə müəllim binəvanın nə hala salındığının, sözün əsl mənasında divar dibi edildiyinin yəqin ki, sizlər də şahidisiniz. Dövlətimizin müəllimə ayırdığı ortalama maaş 300-400 lari, hətta daha azdır. Sizə maraqlı bir fakt deyəcəm. Müəllim insandır. Eşitmişdinizmi? – Əslində müəllim də, sizin kimi, mənim kimi insandır. Hətta ailəsi də var, dərdləri də var, boynundan banklara qədər uzanan dar ağacı kəndirləri də var. O dərəcə ki, hərəsi bir tərəfə çəkir. Təsəvvür edin, müəllimin də, bu "nəhəng" maaş ilə öhdəsindən gəlməsi gərəkən bir həyatı var. Müəllim də, toya getməli, yasa çıxmalıdır. Müəllim də üşüyür. Valideyn müəllim deyil, amma, müəllim həm də valideyndir. Hə, biz valideynlər bəzən bütün yükü müəllimin boynuna atmağı sevirik. Və ya bu sadəcə təbiətimizdə olan bir şeydir. Bütün bunların fonunda nəzərə almalıyıq ki, müəllim, bu şəraitdə müəllim daha doğrusu yaxşı müəllim olmalıdır. Ağlını dərs zamanı minlərlə dərdin , azarın, düşüncənin ağuşundan oğurlayıb, özünü dərsə və şagirdlərə həsr etməlidir. Bir də dediyimiz ki, evdə yaxşı müəllim olmaq üçün çalışmalıdır. Öz üzərində işləməlidir. Bunu onlardan biz də tələb edirik, maaşını qırx ildə bir tetri – tetri artıran dövlət də. Tetri – tetri deyirəm çünki, qalxan qiymətlərin yanında o məbləğ elə tetri dəyərindədir. Qırx ildə bir deyirəm, çünki o dövr arası, o qədər problemlərin müşayətində elə qırx ilə bərabərdir. Bəhs etdiyimiz problemlər müəllimliyi gözdən salır desəm, yuxarıdakı divar dibi ifadəmi də təsdiq etmiş olacam. Müəllim çox kiçik görülməyə başlayır. Hər sahənin olduğu kimi, bu sahənin də ləkəsi sayılacaq nümayəndələri var, ancaq indi onlarla mövzunu ləkələmək istəmirəm. Ən ağrıdıcısı isə müəllimə cəmiyyətin yazıq, fəqir fərdi kimi baxılır. Ən dinc guşə kimi görülür. Bu səbəbdəndir ki, "kişi"lərin arvadları yalnız müəllimə olmaq ixtiyarına sahib olurlar. Və "müəllimə" olurlar. Çünki, bura ziyansız, sakit bölgədir. Duymamış olmazsınız : " Müəllim adamdır" – ifadəsini. Yəni yazığın biridir, kasıbdır, pencəyinin dirsəyi bozarmışdır. Günümüzdə gələcəklə bağlı özünə xəyal quran, rahat gələcək istəyən heç kəs müəllim olmaq istəmir. Buna maddi və maddiyyatın səbəb olduğu mənəvi çatışmazlıqlar şərait yaradır. Bu sahə, ən şərəfli, ən müqəddəs adlandırdığımız sahə gözdən düşür, ən arxa sıralarda yer alır. Tam yerinə düşdü, bu yazını yazmağa başladığım gün, bir dostum bir neçə günə məktəbdə dərs deməyə başlayacağını dedi. Dağlar qədər sevindim. Mən də müəllim olacam, bundan yaxşı nə olar düşüncəsində idim ki, o məktəb mənə qala olacaq, katorqa olacaq dedi. O qədər əminliklə dedi ki, dağlar boyda olan sevincim un kimi ələndi. Bu da izah etmək istədiyim tablo üçün son fırça toxunuşu oldu. Rəsm tamamlandı .

Mən isə, bu rəsmin qarşısında yenə də müəllimlik arzumun arxasındayam. Müəllimlik sinifdə qalmayacaq, mütləq yuxarı pilləyə qalxacaq fikrindəyəm. Bunların düzələcəyini dəyişəcəyini, tələb və təmənni edirik, xalqdan, dövlətdən və müəllimlərdən. Əks təqdirdə, batdıq deməkdir. Xalq olaraq, dövlət olaraq , toplum olaraq sözün əsl mənasında batdıq...

Afayət AFİQ

# USUPAŞVİLİ: TƏHSİL SİSTEMİNDƏ MÖVCUD OLAN PROBLEMLƏR SİYASƏTÇİLƏRİN GÜNAHIDIR



"Məktəb təhsili – Gürcüstanın gələcəyi" konfransında çıxış edən parlament sədri bəyan edib ki, Gürcüstanın təhsil sistemində mövcud olan problemlərə görə siyasətçilər günahkardır. Konfrans Gürcüstan parlamentində işə başlasa da, martın 11-də işini İvane Cavaxişvili adına universitetdə davam etdirmişdir.

"Problem bizdədir, siyasətçilərdədir, daha doğrusu siayasi qərarlar qəbul edən şəxslərdədir", – o, qeyd edib.

Usupaşvilinin sözlərinə görə, "bu problem təkcə təhsil sahəsində görünmür, uzunmüddətli islahatların nəzərdə tutulduğu və uzunmüddətli siyasətin hazırlanmasına ehtiyac duyulan bütün sahələrdə nəzərə çarpır".

Parlamentin rəhbəri onu da qeyd edib ki, təhsil dövlət qayğısına, dövlət standartına və dövlət sisteminə möhtacdır.

"Biz etiraf etməliyik ki, müstəqillik qazanmamızdan 25 il keçdikdən sonra da, biz bu istiqamətdə çox şeyə müvəffəq ola bilməmişik", – Usupaşvili vurğulayıb.

# GÜRCÜSTAN TƏHSİLLİ ÖLKƏLƏR SİYAHISINDA 51-Cİ YERİ TUTUR

Mərkəzi Konnektikut institutunun (Central Connecticut State University) hazırladığı ən təhsilli və savadlı ölkələrin (The World's Most Literate Nations) reytinqində Gürcüstan 51-ci yeri tutub.

Tədqiqatçılar qrupu 200 ölkənin statistika göstəricilərini təhlil etsələr də, reytinqə cəmi 61 ölkə düşüb.

Ilk beşliyə Finlandiya, Norveç, İslandiya, Danimarka və İsveç daxildir. Onların ardınca İsveçrə, ABŞ, Almaniya, Latviya və Hollandiya gəlir. Reytinqdə Rusiya 27-ci yerdədir.

Reytinqi tərtib etmək üçün tədqiqatçılar hər bir ölkədə təhsil sisteminin keyfiyyətini, çap və online nəşrlərin tirajını və sayını, eləcə də kütləvi kitabxanaları nəzərə alıblar.

# MÜƏLLİMLƏRİNİN 83%-İ PEŞƏ İMTAHANLARINDA MİNİMAL MANEƏNİ KEÇƏ BİLMƏYİB



Gürcüstanda məktəb müəllimlərinin çoxu yenə də minimal bilik həddini keçə bilməyib. "Bizneskontakt"ın məlumatına görə, müəllimlərin sonuncu fənn imtahanları cari ilin yanvar ayında keçirilib. İmtahanda iştirak etmək üçün 10552 pedaqoq qeydiyyatdan keçsə də, onlardan 6477 nəfəri sınaq imtahanları verib. Minimal bilik həddi 60% müəyyənləşdirilsə də, bunu da yalnız 1101 pedaqoq, daha doğrusu 17% keçə bilmişdir

Rəsmi məlumata görə, ən ağlamalı nəticə ibtidai pillənin müəllimləri arasındadır. İmtahandan keçən 1167 pedaqoqdan yalnız 94 nəfəri, yəni təqribən 8%-i biliyini sübut edə bilib.

381 riyyaziyyat müəllimindən 26 nəfəri və ya 7%-i, 317 nəfər gürcü dili və ədəbiyyatı müəllimindən 15%-i imtahandan keçə bilib. Bilik həddini təbiətşünaslıq üzrə 9%, fizika üzrə 19%, kimya üzrə 17%-ə yaxın keçib.

Xarici dillərə gəlincə, ingilis dilindən 458 pedaqoq imtahan verib ki, onlardan da yalnız 83-ü həddi keçə bilib. 29 alman dili pedaqoqundan 10-u biliyini sübut edib. Imtahana daxil olan rus dili müəllimlərinin yarıdan çoxu müəyyən olunmuş həddi keçib.

Qeyd etmək lazımdır ki, 19 fənn imtahanı arasında 55%-lik göstərici ilə rus dili imtahanında ən yüksək nəticə əldə olunub.

Gürcüstan təhsil nazirliyində bu münasibətlə hələlik fikir bildirməyiblər.

# SOCAR-IN PREZİDENTİ MARNEULİDƏ MƏKTƏBİN AÇILIŞINDA İŞTİRAK EDİB



Martın 4-də SOCAR-ın prezidenti Rövnəq Abdullayev Gürcüstan hökmətinin nümayəndələri və qonaqlarla birlikdə Marneuli rayonunun Lecbəddin kəndində orta məktəbin rəsmi açılışını edib.

2015-ci ildə SOCAR-ın Gürcüstan nümayəndəliyi xeyriyyə layihəsi çərçivəsində Marneuli rayonunun azərbaycanlılar yaşayan Lecbəddin kənd orta məktəbinin təmir-tikinti işlərini həyata keçirib.

Təmir işləri 2015-ci ilin 1 iyulundan 15 sentyabrınadək davam edib, daha doğrusu iki ay ərzində çox böyük iş həyata keçirilib. Ikimərtəbəli məktəbdə 19 sinif otağı (təmirədək 13 sinif otağı) yerləşir. Burada həmçinin kitabxana, müəllimlər otağı, bufet, direktorun kabineti və informatika otağı fəaliyyət göstərir. Məktəbdə 130-a yaxın şagird təhsil alır.

Lecbəddin kənd məktəbinin istilik sistemi, santexnik və elektrik işləri, eləcə də su təchizatı sistemi tamamilə yenilənib. Bundan əlavə məktəbin ərazisi yenidən qurulub, futbol meydançası tikilib, şirkət məktəbə lazım olan inventar alıb. SOCAR Böyük Vətən müharibəsində həlak olmuş lecbədinlilərin, eləcə də Dağlıq Qarabağda hərbi əməliyyatlar zamanı həlak olmuş Azərbaycanın milli qəhrəmanı Cəlil Əziz oğlu Səfərovun xatirəsinə ucaldılmış abidəni təmir edibr.

# TƏBİƏTİN ÖVLADLARI

*(I hissə)*



XX əsr Azərbaycan poeziyasında yeni bir mərhələ başlayan, ədəbiyyatımızı oksigenlə zənginləşdirən, isti nəfəsi ilə insanların qəlbinə yoldaş olan, qəlbini ölümə deyil, insanlara verən şair Əli Kərim XX əsr Azərbaycan poeziyasının bənzərsiz nümayəndəsi kimi ədəbiyyat tariximizdə öz imzasını təsdiqləmiş istedadlı şair, nasir, dramaturq, çox dəqiq zövqlü tənqidçidir.

Əli Kərimin ilk böyük həcmli əsəri olan "İlk simfoniya" poeması 1956-cı ildə yazılmışdır. Bu o zaman idi ki, ardınca bütün sovet mənəvi həyatında, eləcə də Azərbaycanın bədii, elmi və ictimai fikir tarixində yeni bir epoxa başlayacaqdı. Əli Kərimə düşüncə tariximizin yeni dövrünün diqtə etdiyi yeni bir poetik təmayülün şeirimizdə təməl daşını qoymaq nəsib oldu.

"İlk simfoniya" poeması 1957-ci ildə Moskvada keçirilən gənclərin və tələbələrin VI Ümumdünya Festivalında mükafata layiq görülmüşdür.

İlk şeirləri ilə kifayət qədər şöhrətlənmiş Əli Kərimin poema yaradıcılığına keçməyə tam haqqı vardır. İlk pooeması olan "İlk simfoniya" poemasını yazana kimi, şair ədəbiyyatımızda "Poçtalyon", "Qaytar ana borcunu", "İlk sevgi" şeirləri ilə öz sözünü demişdir. Poema yaradıcılığında "İlk simfoniya" ilk qələm təcrübəsi olsa da, süjetinə, mövzusuna, ideyasına, tərbiyəvi əhəmiyyətinə, həqiqi sənətə, sevgiyə qiymət verilməsinə, həmçinin obrazların dolğun təsvirinə, hiss və duyğuların tərənnümünə, təbiət təsvirlərinin, işlədilən bədii təsvir və ifadə vasitələrinin dolğunluğuna və zənginliyinə görə diqqəti çəkən bu əsər Azərbaycan poeziyasında mühüm yer tutur. Poemada həqiqi sənət yolunun yolçuları, mayası xalq sənətinin ruhundan yoğrulmuş sənət adamları ilə şöhrət arxasınca gedən, "dayaz sənətkar"ların mübarizəsi təsvir olunmuşdur. Poema sağlam ailə, sağlam məişət, məhəbbət və əsl xalq sənəti uğrunda mübarizəyə həsr olunmuşdur.

"İlk simfoniya" poemasında xalis, sırf məhəbbət mövzusu qoyulmamışdır, buradakı sevgi mövzusu sənətə sədaqət mövzusu ilə qovuşuq şəkildədir, daha doğrusu, üzvi şəkildə birləşmiş haldadır, bir bütöv ərinti kimidir. Ancaq Əli Kərimin təsvir etdiyi məhəbbət səmimiliyi, saflığı ilə seçilir. Poemada məhəbbətə və əsl sənətə sədaqət məsələsi paralel işlənmişdir.

"İlk simfoniya" poemasını yazarkən iyirmi beş yaşı olan Əli Kərim öz gənclik ruhunu, təravətini əsərə hopdurmuş, poeziyamıza təmiz hava, yeni rəng gətirmişdir. "İlk simfoniya" poemasında İlham, Nigar, Azad, Qəmər, Eyvaz kimi surətlər vardır. A. Məmmədov qeyd edir ki, süjetin mərkəzində ənənəvi üçlük durur. Lakin bu üçlüyün – İlham, Nigar və Azadın münasibətləri heç də ənənəvi deyil.

Əli yaradıcılığında poetik həqiqət həyat həqiqətindən güclüdür. Dağ da, yol da, meşə də onun şeiri üçün obyekt yox, olsa-olsa fondur. Amma şair bu fondan ustalıqla, yerində istifadə edir, fikrin istifadəsi üçün onları köməkçi vasitəyə çevirir. Poemada gözəl təbiət lövhələri də vardır. Doğrudur, bu təbiət lövhələri Əli Kərim üçün obrazın əhval-ruhiyyəsini, düşüncələrini, insan psixologiyasını açmaqda əsas vasitəyə çevrilir.

"İlk simfoniya" poemasında yaratdığı əsas qəhrəmanlardan biri olan İlham təbiətin oğludur, təbiətin özü qədər təmiz, saf olub ilham qaynağını təbiətdən alır. İlhamın mayası yarpaqların xışıltısının, bulaqların, çayların, damcıların zümzüməsinin yaratdığı musiqidən, təbiətin rənglərindən yoğrulub. Poemanın əvvəlində təsvir olunan cığır sanki İlhamın həyatda çatacagı zirvəyə qalxan cığırdır və bu cığır məhz təbiətin, saflığın qoynundan dolanıb yüksəkliklərə ucalır:

Təpələrin başından,  
Qayaların qaşından  
Keçib gedən bir cığır  
Göylərə sanki çıxır.

Xasiyyətcə sakit, utancaq olan bu uşaq öz azadlığını təbiət qoynunda tapır, ağlayarkən onu təskin edən təbiətə sığınır, təbiət də öz oğlunu bağrına basır, ona həyatın həqiqi səsini, musiqisini dinlədir. Heyrətlənən balaca İlham təbiəti dinləməyi bacarır, arzu elədiyi bütün səsləri eşidə bilir, yalnız əsl sənətkarların duyduğu təbiətin bəstələdiyi melodiyaları dinləyə bilir. Bu uşağı başqalarından fərqləndirən də bu xüsusiyyətlərdir. Əli Kərim yazır: "Qara gözlü bu uşaq, Gedir mızıldayaraq". "Mızıldayaraq" – bu incə ştrix şairin İlhamın sənətkar mənliyindən xəbər verən kiçik bir mesajıdır. İlhamın iç dünyası dibi görünən saf bulaq qədər təmizdir. Oğlan təbiəti dinləyir, sanki, o, gələcək simfoniyalarının ilk ünsürləri olan səsləri dinləyir. Sonra bu səslər damcı-damcı yığılıb "Bir damcı", "Damcılar" kimi simfoniyaların yaranmasına səbəb olacaq.

Əli Kərim güclü musiqi duyumuna malik şairdir. Bədii ədəbiyyat da, musiqi də incəsəntin növləridir, hər iki növ müştərək incəsənət qanunları əsasında yaranır. Musiqi duyumu olan Əli Kərim bu mövzunun həllində sərbəst hərəkət etmişdir. Ona görə də şair Əli Kərimin poeziya qarşısında qoyduğu tələblərlə bəstəkar İlhamın musiqi qarşısında qoyduğu tələblər üst-üstə düşür. Şairlə yaratdığı obraz arasında oxşar xüsusiyyətlər vardır. Əli Kərim də, İlham da təbiətin qoynundan gəlmiş vicdanlı, təmiz mənəviyyatlı əsl sənət yolçularıdır. Nazim Hikmət ceviz ağacına çevrilə bildiyi kimi, Əli də bir gecəlik Kür ola bilirdi, dənizə də dönə bilirdi. Əli Kərim özünün təbiətə belə sıx bağlılığını yaratdığı bəstəkar obrazına keçirməyi zəruri saymışdır. Həyatı duymaqda, qavramaqda prinsipcə şairlə bəstəkar arasında elə bir fərq yoxdur.

Jalə LOĞMANQIZI  
*Nəzəli ictimai məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi*

# GÜRCÜSTAN SQ-NİN III PİYADA BRİQADASINDA MÜSƏLMAN İBADƏTXANASI AÇILIB



Gürcüstan silahlı qüvvələrində dini azadlıq prinsiplərinin təmin edilməsi üzrə tədbirlərə başlanılıb. Müdafiə naziri Tinatin Xidaşeli müfti Beqlar Kamaşidze ilə birlikdə III briqadada hərbi xidmət keçən müsəlmanlar üçün ibadətxana açıb.

Hazırda III piyada briqadasında 103 müsəlman hərbi qulluqçu xidmət edir.

Müdafiə naziri hərbi qulluqçular qarşısında çıxış edərək, ölkədə dini azadlığın vacibliyini qeyd edib.

"Gürcüstan dini azadlığın təmin edildiyi ölkədir. Ölkə demokratik qanunvericiliyə malikdir və demokratik hakimiyyəti var. Demokratik azadlıq o deməkdir ki, bütün insanlar bərabərdir və hamı öz ölkəsində xidmət etmək imkanına malikdir, həm də din azadlığından istifadə etmək imkanına malikdir. Biz bu təşəbbüsü Pankisi dərəsində səsləndirmişdik və sözdən işə keçməyə başlamışıq. Müsəlman hərbiçilərin xidmət keçdiyi bütün biriqadalarda onlar tam, mütləq dini azadlığa malik olacaqlar. III piyada briqadası ibadətxananın açılması üçün lazım gələn bütün ilkin tədbirləri belə tez həyata keçirdiyinə görə təşəkkürə layiqdir. Ümid edirəm ki, martın sonunadək bu prosesi daha iki briqadada başa çatdıra biləcəyik. Gürcüstan ordusunda xidmət edən bütün hərbi qulluqçular bərabərdirlər, hamının öz dininə ibadət etmək imkanı eyni olacaq. Bunun üçün bütün şərait yaradılacaq və bunun zəmanəti Müdafiə nazirliyidir", – Xidaşeli bildirib.

Müdafiə naziri həmçinin III briqadanın şəxsi heyətinə Qərb komandanlığının yeni başçısı polkovnik Şalva Capaxidzeni təqdim edib.

Tədbirdə müdafiə nazirinin müavini Besik Loladze, Baş Qərargah rəisinin müavini polkovnik Omar Beqoidze, təlim və hərbi təhsil sahəsinin komandanı polkovnik Malxaz Makaradze, III piyada briqadasının komandiri vitse-polkovnik Roland Kiknavelidze və Gürcüstan müdafiə nazirliyinin digər nümayəndələri iştirak etmişlər.

# OMBUDSMEN HOMOFOBİYA İLƏ MÜBARİZƏNİN ZƏRURİLİYİNİ TƏSDİQLƏYİB



Ombudsmen Uça Nanuaşvili bəyan edib ki, irqçiliyə və dözümsüzlüyə qarşı mübarizə üzrə Avropa komissiyasının (ECRİ) Gürcüstanda homofobiya ilə mübarizə üzrə şöbə yaratmaq təklifi Gürcüstan Xalq müdafiəçisi aparatının mövqeyi ilə üst-üstə düşür.

ECRI illik məruzəsini yayıb. Məruzədə Gürcüstan hakimiyyəti əvvəlcədən ombudsmen aparatı və müvafiq qeyri-hökumət və beynəlxalq təşkilatlarla məsləhətləşmələr aparan irqçilik, homofobiya və transfobiya cinayətlərinin aşkarlanması üzərində işləyəcək xüsusi polis dəstəsi yaratmağa çağırılıb.

"Xalq müdafiəçisinin və ECRİ-nin tövsiyyələri üst-üstə düşür. Biz dəfələrlə bu problemi göstərmişik ki, bu cür faktlar mövcuddur... Biz konkret münaqişələrə münasibətimizi bildirməliyik", – Nanuaşvili idarənin mətbuat xidmətinin yaydığı videoşərhdə deyib.

Onun sözlərinə görə, ECRİ-nin məruzəsi qismən Gürcüstan Xalq müdafiəçisi aparatının materiallarının köməyi ilə hazırlanıb.

ECRİ tərəfindən monitorinq Avropa Şurasına daxil olan ölkələrdə həyata keçirilir. Monitorinqbeş ildə bir dəfə keçirilir.

# Aİ İLƏ VİZASIZ REJİM GÜRCÜSTAN VƏTƏNDAŞLARINI İŞLƏ TƏMİN ETMƏYİ NƏZƏRDƏ TUTMUR

Avropa Komissiyası Avropa parlamentinə və Avropa Şurasına Gürcüstanı Şenqen zonası ölkələri ilə vizasız rejimin fəaliyyət göstərdiyi ölkələrin siyahısına daxil etmək barədə müraciət edib. Bu barədə martın 9-da miqrasiya, daxili işlər və vətəndaşlıq məsələləri üzrə Avropa komissarı Dimitris Avramopulos bəyan edib.

Onun sözlərinə görə, Avropa İttifaqı keçən ilin dekabrında viza liberallaşmasının yerinə yetirilməsi üzrə Gürcüstan hökumətinin səyini müsbət qiymətləndirmiş, Gürcüstanın Aİ ilə viza rejiminin liberallaşdırılması üzrə planı tam təmin etdiyini təsdiqləmişdir.

Avramopulos Aİ-nin qanunverici orqanlarının Avropa Komissiyasının təşəbbüsünü vaxtında təsdiq edəcəyinə ümid etdiyini bildirib. O, qeyd edib ki, bu baş verən kimi biometrik pasporta malik olan Gürcüstan vətəndaşları Şenqen ölkələri zonasına vizasız daxil olacaq və onun ərazisində 180 günlük dövr ərzində 90 gün qala biləcəklər.

Komissar əlavə edib ki, vizasız rejimə işgüzar, turist və ailə səfərləri aiddir, lakin ona işlə təmin etmə daxil deyil.

"Viza rejiminin liberallaşdırılması Avropa İttifaqı ilə Gürcüstan arasında irəliyə doğru atılmış mühüm addımdır", – Avramopulos bəyan edib və aydınlaşdırıb ki, viza rejiminin sadələşdirilməsi Gürcüstan və Aİ ölkələri arasında iqtisadi, işgüzar, mədəni və digər qarşılıqlı münasibətlərin dərinləşməsinə kömək edəcək.

# SƏYYADIN NƏVƏSİ SAYAT NOVA

*(əvvəli ötən saylarımızda)*

**Sayatnovaşünas Moris Həsrətyan yazır: "Hər bir erməni, gürcü və azərbaycanlı ədəbiyyatşünas alimi Sayat Novanı digər xalqdan daha öncə öz xalqına aid edər. Erməni deyər ki, Sayat Nova ermənidir...Gürcü deyər ki, Sayat Nova tiflislidir, Gürcüstan paytaxtının canlı mühitinin yetişdirməsi, gürcü xalq xanəndəsi-şairi, gürcü çar sarayının baş xanəndəsi, gürcü çarının təhkimçisi, onun sevimlisi və inanılmış adamı olmuşdur... Azərbaycanlı da deyər ki, bağışlayın, Sayat Nova lap qabaqcadan Azərbaycan dilində yazmağa başlamışdır, ancaq 10-12 il sonra ana dilində – ermənicə şeirlər yazmağa girişmişdir".**

Moris Həsrətyan başqa bir yerdə qeyd edir ki, şairin bizə çatan ədəbi irsinin yarısından çoxu Azərbaycan dilindədir. Bu hələ azdır. Sayat Novanın hətta ermənicə və gürcücə şeirlərinin əksəriyyətinin quruluşu və forması Azərbaycan şeirinin quruluşunda və formasındadır, adları da Azərbaycan adlarıdır. Görkəmli Azərbaycan alimi Mirəli Seyidov bu barədə belə yazır: "Qucaqdan, Budaqoğlundan, Mirandan sonra, Zaqafqaziya xalqlarının şifahi ədəbiyyatına, musiqisinə yaxından bələd olan, onlardan yaradıcı şəkildə istifadə edən Sayad Nova varsağı şeir formasında əsərlər yazmış və şeirlərini varsağı havası (melodiyası) ilə oxumuşdur. Sayat Novanın elm aləminə "Saat Novanın dəftəri" adı ilə məlum olan əlyazmasındakı bir çox şeirlərin altında edilən qeydlərdən görünür ki, aşıq varsağı havasından və şeir formasından xeyli istifadə etmişdir. Həmin şeirlərin altındakı qeydlərdə "varsaq" sözünün işlənməsinə nəzər salaq: "Bir gözəl barəsində Arutinin dediyi varsaq", "Bu Arutinin dediyi varsaqdır", "Bu varsağı Arutinin dediyidir", "Arutinin (dediyi) varsağıdır, üçləmə", "Bu Arutinin dediyi yaxşı varsağıdır", "Arutinin dediyi öyütləmə varsağıdır", "Bu Arutinin dediyi varsağıdır". (Sayat Nova. Ermənicə şeirlərinin tam külliyatı, Yerevan (ermənicə), 1931, səh, 97, 98, 102, 103, 108, 112, 128, 133). Mirəli Seyidov. Azərbaycan mifik təfəkkürünün qaynaqları, Bakı, Yazıçı, 1983).

Nəhayət, Sayat Nova özündən əvvəl yaşamış erməni, fars yazıçılarından başqa, hətta onlardan daha çox, ölməz Nəsiminin, Abbas Tufarqanlının yaradıcılıqları ilə tanış idi və onların, ilk növbədə Abbas Tufarqanlının təsiri altında olmuşdur. O, Qövsi ilə, xüsusən öz müasiri və həmvətəni Ağa Məsih Şirvani, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, bir çox şair və aşıqlarla tanış olmuşdur.

Moris Həsrətyanın daha sonra qeyd etdiyinə görə, son iki-üç yüz il ərzində erməni aşıqlarının çoxu hamının başa düşdüyü Azərbaycan dilində yazıb yaradırdı. Onlardan biri də Sayat Nova olmuşdur. Azərbaycan dilində yazmağı və danışmağı bacaran Sayat Nova hələ 18-20 yaşlarında ikən yalnız bu dildə yazmağa başlamışdır. Bir neçə ildən sonra gürcücə, 30 yaşına çatdıqdan sonra isə ana dili olan ermənicə yazmışdır. Belə ki, onun bizə qədər gəlib çatan qoşqularının əksəriyyəti, yəni 115-i Azərbaycan, 60-ı erməni, 37-si isə gürcü dilindədir. Onu da xüsusilə qeyd etmək lazımdır ki, Sayat Novanın Sankt-Peterburqun Asiya muzeyi arxivində saxlanılan dəftərində azərbaycanca yazılan ilk şeirin tarixi 1742-ci il, ermənicə yazılan şeirin tarixi isə 1752-ci il göstərilmişdir. Onun Azərbaycan dilindəki nəğmələrinin başlıca forması adi qoşmalardır. Bundan başqa müxəmməs, müsəddəs, müstəzad, yedəkləmə, zəncirləmə (bəzən də hər ikisini birlikdə) şeir növlərindən də istifadə edirdi.

***

1914-cü il mayın 15-də Surpgeorq kilsəsinin həyətində onun qəbirüstü abidəsinin açılışı olmuşdur. Həmin tədbirdə Tiflis ictimaiyyəti, gürcü yazıçıları iştirak etmiş, Sayat Nova haqqında səmimi sözlər söyləmişlər. Elə o vaxtdan hər il mayın son bazar günündə onun xatirə gününün keçirilməsi qərara alınıb. Tarixə üç dilli sənətkar kimi düşən Sayat Novanın son vaxtlara kimi keçirilən tədbirlərdə Azərbaycan, erməni, gürcü dillərində qoşqular qoşub oxuduğunu xüsusilə vurğulamışlar. Onunla bağlı keçirilən son tədbirdə, daha doğrusu, Ermənistanda keçirilən seçkilər ilə əlaqədar mayın son bazar günündə deyil, 2009-cu il iyunun 7-də Şeytanbazarda (indiki Qorqasali meydanında) kiçik bir bağçada onun xatirə obeliskinin açılışında Ermənistandan gələn qonaqlar, eləcə də Tbilisinin erməni ictimaiyyətinin nümayəndələri öz çıxışlarında onun üç dildə yazmasından, qoşqularının əksəriyyətinin azərbaycanca olmasından heç danışmadılar. Belə ki, bir növ onun haqqında yeni bir əfsanənin – onun üç deyil, iki dildə şeir yazması barəsində əfsanənin əmələ gəlməsinə zəmin yaranmağa başlanıb. Onu da qeyd etmək istəyirəm ki, həmin obelisk qoyulmamışdan öncə onun yerindəki nişangah lövhəsində "erməni və gürcü şairi" ifadəsi yazılmışdı. Sayat Novanın yaradıcılığına yaxşı bələd olan, Azərbaycan ədəbiyyatının yaxın dostu, həmin obeliskin qoyulması işində bir məsləhətçi kimi nəzərdə tutulan Zezva Medulaşvili ilə bu barədə mənim söhbətimdən sonra həmin daş oradan götürüldü və obeliskdə başqa ifadə "XVIII əsrin böyük tiflisli aşığı" ifadəsi həkk olundu. Qəribə haldır ki, vərəqin təsvir olunduğu daş lövhədə dörd dildə olan kəlmələrdən ibarət bəndin azərbaycanca olan hissəsi qəsdən qatlandığından oxunmur. Bu şeir belədir:

Es ra mamivida bibinçi kardem,
Var get boynu buruq, tanen dusarats,
Tavi tsavaqebine, az şeş mardum,
Divanə gəzirəm, banen dusarats.

Bir məsələni də xüsusilə vurğulamaq lazımdır ki, Qədim Tiflisin Meydan, Şeytanbazar adlanan məhəlləsində, vaxtilə soydaşlarımızın məskunlaşdığı və müxtəlif dükanlarının olduğu yerdə, eləcə də qədim şah Abbas məscidinin olduğu civarlarda Sayat Nova adına bağçanın salınması, onun xatirəsinə xatirə obeliskinin qoyulması gələcəkdə hansısa daha bir əfsanənin yaradılacağından xəbər verir. Halbuki, Sayat Novanın anasının yaşadığı Avlabar məhəlləsində, hazırda Tiflis Dövlət Erməni Dram Teatrı binasının həndəvərində böyük bağçalar vardır.

Qayıdaq onun haqqında yaradılan uydurma və əfsanələrə. Sayat Nova haqqında indiyədək mövcud olan 8 əfsanədə, onun Ağa Məhəmməd şah Qacarın 1795-ci ildə Tiflisə hücumu zamanı həlak olması, II İraklinin bacısı, Dimitri Orbelianinin arvadı Annaya vurulduğuna görə saraydan qovulması, sarayda hörmət qazanaraq saray şairi olması, II İrakli ilə dostluq etməsi, şahzadə Paatanın başçılığı ilə çara qarşı sui-qəsddə iştirak etməsi və bu səbəbdən saraydan qovulması, tavad-aznaurlara, millətçilərə qarşı mübarizə aparması, beynəlmiləlçi, xalqlar dostluğunun tərənnümçüsü olması, gürcü yazıçılarından Besiki, A. Çavçavadze və Qriqol Orbelianiyə təsir göstərməsi barəsində söhbət açılır. Lakin müəyyən mənbələr, tarixçilər, alimlər və salnaməçilər bu əfsanə və uydurmaları alt-üst edib ortaya inandırıcı dəlillər çıxarmışlar. Bu barədə çox nümunələr gətirmək olar. Georgi Axvlediani adına Dilçiliyin Tarixi Cəmiyyətinin prezidenti, professor Aleksandr Potsxişvili özünün "Sayat Nova – əfsanələr və həqiqət" kitabında onun Ağa Məhəmməd şah Qacarın Tiflisə hücumu zamanı deyil, həmin vaxtdan 6 il sonra öz əcəli ilə vəfat etdiyini, tarixçi Platon İoselianinin onun ölüm tarixini tamamilə aydın şəkildə 1801-ci ili göstərdiyini, "Kalmasoba"ya görə onun Axpat monastrında rahib olduğunu, Tbilisidəki Supgeorq kilsəsinin həyətində deyil, Axpat monastrının həyətində dəfn olunduğunu, ötən əsrin əvvəllərində Supgeorq kilsəsinin həyətində onun saxta məzarı üzərində qəbir daşının qoyulmasını qeyd edir. Filologiya elmləri doktoru, ermənişünas Bondo Arveladze də Sayat Nova barədə yaradılan əfsanələrə və uydurmalara qarşı ardıcıl şəkildə kəskin dəlillərlə çıxış edib.

**Xülasə, bu uydurmalar və əfsanələr ermənilərin məlum bir niyyətinə, həqiqətin nazilməsinə xidmət etsə də, atalar yaxşı deyib "Həqiqət nazilər, ancaq üzülməz". Və ona min cür don geydirilsə də, həqiqət yenə də öz həqiqətliyində qalacaqdır.**

Mirzə MƏMMƏDOĞLU

## GÜRCÜSTAN KİÇİK VƏ ORTA BİZNESƏ OLAN TƏLƏBLƏRİ DƏYİŞİR

İqtisadiyyat üçün kiçik biznesin əhəmiyyəti barədə artıq bu gün heç kim mübahisə etmir. Gürcüstan hökuməti də bu sahədə çox şeyi dəyişmək qərarına gəlib. Ölkənin maliyyə nazirliyi buxalter hesabı və audit haqqında qanununa dəyişikliklər etmək üçün qanun layihəsi hazırlayır. Layihədə mikro, kiçik və orta biznes anlayışı dəqiqləşdirilir, buxalter uçotu və vergi yoxlamaları sadələşdirilir. Eyni zamanda Gürcüstan hökuməti mikro, kiçik və orta biznesi müəyyənləşdirən həddi böyütməyə tərəfdardır.



Xüsusilə, illik dövriyyəsi 1 milyon lariyədək (hazırda 30 min laridir) olan şirkətləri mikrobiznes, 10 milyon lariyədək olanları kiçik, 50 milyon lariyədək olanları isə orta biznes hesab etmək təklif olunur.

Müəssisələrin innovasiya inkişafı mərkəzinin rəhbəri Tamaz Vaşakidzenin fikrinə görə, bu gün mikrosahibkar statusunu yalnız xüsusi şəxslər ala bilirlər. Yenilənmiş qanuna görə, bu, hüquqi şəxslər üçün də mümkün olacaq.

## GÜRCÜSTANDA UŞAQLARIN TƏRBİYƏSİ SƏRT APARILIR

UNICEF-in kommunikasiya proqramının rəhbəri Maya Kurtsikidze bildirib ki, Gürcüstanda norma kimi qəbul edilən uşaqların sərt tərbiyəsi yolverilməzdir, belə ki, bu, onların hüquqlarının pozulmasıdır.

UNICEF-in son tədqiqatları göstərir ki, Gürcüstan əhalisinin 45%-i uşaqlara qarşı fiziki zorakılığı mümkün hesab edir. Rəyi soruşulanların 60%-i deyib ki, ciddi tərbiyə metodları yaxşı nəticə verir.

"Uşaqlara qarşı zorakılıq hər yerdə, bütün ölkələrdə baş verir, düzdür, bu baxımdan Gürcüstan istisna deyil. Belə təsəvvür var ki, uşaq mənimdir, ona istədiyimi edə bilərəm... Bu stereotiplər, təəssüf ki, cəmiyyətimizdə tətbiq olunur. Bu, həqiqətən də həyacanlı vəziyyətdir", – Kurtsikidze deyib.

Onun sözlərinə görə, zorakılıq əsasən ailədə baş verdiyindən bu barədə çox vaxt heç kim bilmir. Belə ki, bu barədə söhbət açmırlar.

"Zorakılıq uşağın fiziki inkişafına və hissi-psixoloji vəziyyətinə təsir edir. Bununla o, başqalarına münasibətdə zorakılıq hərəkətləri nümayiş etdirməyə başlayır, çünki, bunu qəbul olunmuş ünsiyyət norması hesab edir", – Kurtsikidze aydınlaşdırıb.

O, qeyd edib ki, bu problemin həll edilməsi üçün hüquqi və inzibati tədbirlərlə yanaşı, cəmiyyətin münasibətini dəyişmək və mövcud olan stereotipləri dağıtmaq lazımdır.

Gürcüstanda UNICEF-lə birlikdə uşaqların zorakılıqdan müdafiə olunması mexanizmi 2010-cu ildən yaradılıb. Bu təşəbbüs müxtəlif sahələrin mütəxəssislərini – pedaqoqları, həkimləri, hüquq mühafizə orqanlarının əməkdaşlarını birləşdirir. Onlara uşaqlara qarşı zorakılıq faktları barədə ictimai işçilərə məlumat vermək həvalə olunub.

"Çox vaxt bu adamlar başqalarının işlərinə qarışmamalı olduqlarını düşünərək, bu məlumatları təqdim etmirlər.



İndi buna görə onlar cərimə olunacaqlar. Uşaqlara qarşı zorakılıq problemi hər birimizin işidir. Vətəndaş fəallığı nümayiş etdirmək lazımdır" – Kurtsikidze qeyd edib.

Yaxınlarda Gürcüstan hökuməti uşaqların laqeyd valideynlərdən müdafiəsi üçün bir çox qanunlara düzəlişi parlamentə təqdim edib. Qanun layihəsi təsdiqləndiyi təqdirdə ictimai işçilərin hüquqları genişlənəcək, lazım olduqda polisin müdaxiləsi olmadan uşaqları almaq hüquqları meydana çıxacaq.

UNICEF-in tədqiqatlarına əsasən 2007-2008-ci illərdə Gürcüstanda valideynlərin 90,8%-i uşaqları intizama alışdırmaq üçün fiziki və psixoloji cəzadan istifadə edib.

Sorğu göstərib ki, Gürcüstanda daha çox uşaqların yumşaq yerinə ilişdirirlər (51,7%). Valideynlərin 41,6%-i uşaqları silkələyir, 43,7%-i saçından dartır, 43,8%-i qulağını çəkir.

Bundan başqa valideynlər tez-tez uşaqların üstünə qışqırır (75,1%), pis sözlər deyir (31,2%), söyür (29,8%) və onları atacaqları ilə qorxudurlar(27,4%).

Hazırladı: Elnur SƏFƏROV

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 mart 2016-ci il
№005 (19)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## RƏSSAM RİZVAN İSMAYILIN BAKIDA SƏRGİSİ AÇILIB



Bakıda Gürcüstanda yaşayan azərbaycanlı rəssam Rizvan İsmayılın fərdi sərgisi açılıb.

APA-nın məlumatına görə, "Qalereya 1969" sərgi salonunda keçirilən sərgidə mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev, Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, rəssam Sakit Məmmədov və başqaları iştirak ediblər.

Ə. Vəliyev bildirib ki, R. İsmayıl istedadlı rəssam kimi həm Gürcüstanda, həm də Azərbaycanda tanınır, onun əsərləri müxtəlif sərgi salonlarında nümayiş olunur: "Rizvanın əsərləri son dərəcə gözəldir və insanı düşünməyə vadar edir. Ümid edirəm ki, Rizvan İsmayılın əsərləri müxtəlif sərgi salonlarında nümayiş olunacaq. Mən Rizvanı ürəkdən təbrik edirəm və ona yaradıcılıq uğurları arzu edirəm".

Ə. Amaşov isə Gürcüstan-Azərbaycan mədəni əlaqələrindən danışıb, sərgini iki ölkə arasında mədəni münasibətlərin növbəti uğuru kimi qiymətləndirib.

Tədbirdə çıxış edən rəssam S. Məmmədov, Gürcüstan Mədəniyyət Mərkəzinin İdarə Heyətinin sədri Fazil Həsənov R. İsmayılın yaradıcılığı haqqında fikirlərini bildiriblər, onun əsərlərini özünəməxsus sənət nümunəsi kimi dəyərləndiriblər.

## BAKIDA AZƏRBAYCAN-GÜRCÜ YARADICILIQ FESTİVALI KEÇİRİLİB



Bakının Mərdəkan qəsəbəsindəki Mədəniyyət sarayında Azərbaycan və gürcü xalqları arasında dostluq əlaqələrini möhkəmləndirmək məqsədilə “Gələcəyin günəşi” adlı Beynəlxalq uşaq və gənclik yaradıcılıq festivalı keçirilib. Bu barədə Bakı şəhər mədəniyyət və turizm idarəsinin mətbuat xidmətinə istinadən Trend Life məlumat yayıb.

Festivalda xoreoqraf Zaal Çumburadzenin rəhbərlik etdiyi Qafqaz folklor və incəsənət assosiasiyasının “Eleoni”, “Şən notlar”, “Art-studiya Kvartet” uşaq rəqs qrupları və digərləri, habelə Mərdəkan qəsəbəsi mədəniyyət sarayının “Azərbaycan qartalları” və “lalələr” rəqs kollektivləri tamaşaçılara maraqlı, parlaq və həyacanlı rəqs nömrələri təqdim ediblər.

Festival iki ölkənin mədəniyyətini təqdim etmək və rəqs kollektivləri arasında dostluq əlaqələrini gücləndirmək məqsədilə keçirilib.

## DİŞ DAŞLARINI ARADAN QALDIRAN VASİTƏ

Qəhvəyi və ya sarı diş daşlarını ev şəraitində də yox etmək olar.

Diş daşı çox yayılmış problemdir və müasir stomatologiya bunun aradan qaldırılması üçün bir çox üsullar təklif edir. Lakin bu problemi cibinizə qənaət etməklə ev şəraitində də yox edə bilərsiniz.

Ağız boşluğunun xüsusi gigiyenası çox vacibdir. Əgər dişlərə vaxtında qulluq göstərilməsə, diş ərpi, iltihabi xəstəlik, periodontit infeksiyası inkişaf edə bilər. Periodontit infeksiyası zamanı diş nahiyəsində kəskin ağrılar olur, dişə toxunduqda bu ağrılar bir az da artır. Həmçinin, dodaq və yanaqlar şişir, damaq böyüyür, diş tərpənir. Bəzən damaqda, içindən irin çıxan dəlik aşkar olunur. Xoşbəxtlikdən, bu dəhşətli xəstəliyin profilaktikası üçün təbii vasitə mövcuddur!

Diş daşını təmizləyən məhlulun reseptini təqdim edirik:

İnqrediyentlər: 40 qram qoz qabığı,1 stəkan su.

Hazırlanması:

Qoz qabığını 20 dəqiqə ərzində suda qaynadın. Qarışığı süzüb soyumasını gözləyin. 10 dəqiqə diş fırçasını qoz həlimində isladıb dişləri diqqətlə təmizləyin. Bu proseduru diş daşı gedənə qədər gündə 3 dəfə təkrar etmək olar.



Nəticəni artıq 2 həftə sonra görəcəksiniz! Ən güclü antibakterial sayılan qoz qabığı mina səthini təmizləməyə kömək edir. Bu prosedur qan axması, damaq xəstəliyindən əziyyət çəkənlər üçün xüsusilə faydalıdır. Belə ki, o, iltihabı sürətlə yox edir.

## TİFLİSDƏ GÜRCÜSTANIN XALQ QƏHRƏMANI KİMİ TARİXƏ DÜŞƏN AZƏRBAYCANLI XUDU BORÇALININ HEYKƏL MAKETİNƏ BAXIŞ KEÇİRİLİB



Tiflisdəki Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyət Muzeyində Gürcüstan tarixinə xalq qəhrəmanı kimi düşən, əslən Borçalıdan olan azərbaycanlı sərkərdə Xudu Borçalının bir qrup gürcü və azərbaycanlı ziyalı, elm və incəsənət xadimi, dövlət adamı ilə Marneulidə qoyulacaq heykəlinin maketinin müzakirəsi olub.

Dəyirmi stol arxasında baş tutan müzakirədə Gürcüstan Mədəniyyət Nazirinin Müşaviri Georgi Gegeçkori, tarixçi alim, professor Petre Qoçaqidze Çaladideli, Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyət Muzeyinin direktoru Leyla Əliyeva, Gürcüstan parlamentinin keçmiş deputatı İshaq Novruzov, görkəmli heykəltaraş Georgi Jqenti və tarixçi alim, professor Şalva Şubitidze, muzeyin direktor müavini Ketevan Lomidze və Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri Nizami Zillioğlu iştirak edib.

Tədbirdə çıxış edən görkəmli gürcü heykəltaraşı Georgi Jqenti iştirakçılara Xudu Borçalının Marneulidə qoyulacaq heykəlinin maketini təqdim edib. Tədbir iştirakçıları heykələ baxış zamanı fikir və mülahizələrini söyləyiblər. G. Jqenti bildirib ki, azərbaycanlı Xudu Borçalı Gürcüstan vətəndaşıdır və o, 200 nəfərdən çox döyüşçüsü olan sərkərdə kimi Aspindza döyüşündə vuruşub və Gürcüstanı müdafiə edib. Bu heykəldə o, azərbaycanlı kimi milli geyimdə təsvir olunub və heykəlin arxasında isə Gürcüstanın bütün bölgələrundən gətirilən daşlardan ibarət divar və ornament olacaq və bu, qəhrəmanın ölkənin suveren və müstəqilliyi uğrunda vuruşduğunu simvolik olaraq göstərəcək," - G. Jqenti bildirib.

Tədbirdə çıxış edən iştirakçılar müzakirə zamanı heykəlin arxasında tikilən divarın yanında üzüm sahəsini göstərən tikilinin də olmasını vacib hesab ediblər. Heykəltaraş belə təklifləri nəzərə alacağını bildirib.

Tarix elmləri doktoru, professor Petre Qoçaqidze-Çaladideli çıxışında heykəlin Marneulinin mərkəzində ucaldılacağını qeyd edib. Onun sözlərinə görə, heykəlin yaradılmasına Gürcüstan hökuməti maliyyə ayırmalıdır. O, bununla heykəli ucaldılacaq Xudu Borçalıya gürcü xalqının hörmət və ehtiramının bildiriləcəyini deyib.

Heykəltaraş Georgi Jqenti Xudu Borçalıya ucaldılacaq heykəlin 4 metr hündürlüyündə olacağını bildirib: "Bu kiçik maket heykəlin ilk variantıdır və mən Gürcüstanın tarixi muzeylərini yenə gəzib qəhrəmanın geyimini bir də dəqiqləşdirəcəm," heykəltaraş qeyd edib.

Gürcüstan Mədəniyyət Nazirinin müşaviri Georgi Gegeçkori açıqlamasında Xudu Borçalının heykəlini yaradan heykəltaraşın təcrübəli və istedadlı olduğunu vurğulayıb: "Düşünürəm ki, gözəl görünüşlü heykəl alınacaq. Bu gün biz müzakirə etdiyimiz maketə baxdıq və hər bir şəxsin ayrı-ayrı fikiri oldu. Ümid edirəm ki, biz heykəli yaxın aylarda ucaldacağıq. Belə qəhrəmanlar yaddan çıxmır. Biz Xudu Borçalını heç zaman unutmayacağıq. Onun heykəli Gürcüstanın hər yerində ucaldıla bilər, amma anadan olduğu Marneulidə ucaldılsa yaxşı olar. Biz bunu bir daha müzakirə edib bir qərara gələcəyik,"snazir müşaviri bildirib.

Nizami Məmmədzadə,

## BAŞSAĞLIĞI

Nəzərli ictimai məktəbinin pedaqoji kollektivi həmin məktəbin müəllimi Yusif İsayevə qardaşı

**Teymur Məhəmməd oğlunun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

“Yeni Yol” qəzetinin əməkdaşları “Region press” qəzetinin redaktoru Binnət Əli oğlu Məmmədova anası

**Səlminaz Məhəmməd qızının**

vəfatından kədərləndiyini bildirir, mərhumənin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

**Təsisçi:**
***“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”***

***Redaktor:***
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru:***
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.